Azadlıq Radiosu

View the original article

DÜNYA XƏBƏRLƏRİ

# Berlin aeroportu dron səbəbindən işini müvəqqəti dayandırıb

Sentyabr 24, 2026




Berlin-Brandenburq aeroportu

Berlin-Brandenburq aeroportu yaxınlığında dron görünməsi səbəbindən sentyabrın 23-ü axşam saatlarında işini müvəqqəti dayandırıb.

Dron yerli vaxtla saat 20:00 radələrində görünüb. Bundan sonra Almaniyanın Hava Nəqliyyatının İdarə Edilməsi Xidməti (DFS) əvvəlcə şimal, sonra isə cənub uçuş-enmə zolağını bağlayıb. Məhdudiyyətlər bir saat sonra aradan qaldırılıb.

DPA agentliyinə görə, Berlin-Brandenburq Almaniya hava limanları arasında yaxınlığında ən çox dron aşkar edilən məkandır. **Dispetçer xidməti 2026-cı ilin ilk altı**

**ayında burada 28 dron qeydə alıb və onlardan 7-sində uçuşlar dayandırılıb.** Müqayisə üçün, 2025-ci ilin bütün ili ərzində cəmi 8 dron qeydə alınmışdı.

Hazırda Almaniya aeroportları və hərbi obyektləri yaxınlığında şübhəli dronların görünməsi ilə bağlı bir neçə hadisə araşdırılır.

Avqustda Leypsiq hava limanında bir neçə dron tapılıb. Onlardan birinin partlayıcı ilə təchiz olunduğu və Ukraynanın sursat daşıyan "An-124" təyyarəsinin yaxınlığında yerləşdiyi bildirilir. Sentyabrın 1-də Almaniya hakimiyyəti iddia edilən təxribat cəhdində Rusiyanı günahlandırıb. Moskva ittihamları rədd edib.

Sentyabrın 23-də Vunstorf hərbi aerodromu yaxınlığında tapılan dron qalıqlarının yanında da naməlum maddə aşkarlanıb. Maddənin partlayıcı olduğu güman edilir, amma kriminalistik ekspertiza hələ bitməyib. Həmin aerodromda Almaniya Hərbi Hava Qüvvələrinin "Airbus A400M" hərbi nəqliyyat təyyarələri yerləşir.

Almaniyanın Federal Prokurorluğu və Federal Cinayət İşləri İdarəsi bu iki hadisə arasında əlaqəni araşdırır.

Almaniya mediasının məlumatına görə, dronların quruluşu oxşardır. Vunstorfdakı dronun ən azı bir detalı 3D printerdə hazırlanıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur